

MƏMMƏD ƏKBƏRLİ

## QALX, YANDIRAQ TONQALLARI

Qalx, yandıraq tonqalları, hər künçündə bu dünyanın,
Harda türkün oğlu varsa, oyat, coşsun axan qanı...
Sən qalxmasan, oyanmasan, kimsə qalxmaz, Azərbaycan!
Qalx, birləşək, bütövləşək, olaq bir can, Azərbaycan!

Daha bəsdir hiylələrə, oyunlara meydan oldun,
Daha bəsdir parçalanıb, dağıdılıb viran oldun.
Bəsdir daha pay vermisən torpağından hər yurdsuza,
Bəsdir daha inanmısan hər namərdə, hər arsıza.

Təbriz darda, dili yoxdur, dilə gəlib necə dinsin?
Dəmirqapı Dərbənd bağlı, düşmən bağrın necə dəlsin?
Borçalıdan xəbər gəlir gizli-gizli, xısın-xısın,
Kim qalxacaq, bu dərdlərə dərman tapıb, çarə qılsın?

İrəvanım, Zəngəzurum inildəyir neçə vaxtdır,
Göyçə gölüm - göz yaşlarım, bu taledir, yoxsa baxtdır?
O azmışlar, o məlunlar dövlət qurub torpağımda,
Necə susum, necə dözüm, necə yatım yatağımda?

...Əldən gedib Dərələyəz, əldən gedib Vedibasar,
Qorumasan doğma yurdu, bir gün gələr, qurd-quş basar.
Tapdaq altda Gözəldərə, tapdaq altda Dilicanım,
Yada düşər Basarkeçər, damarlarda donar qanım.

O - Kərkidir, Qarabağdır - qan fışqıran təzə yaram,
Qalx ayağa, tonqalı çat, harda olsan, orda varam...
Birdəfəlik təmizləyək yağıları yurdumuzdan,-
Vulkan olaq, tufan olaq, zəfər çalmaq ordumuzdan.

Bu torpagın altı qızıl, üstü ləldir, bilirsənmi?
Bu yerləri darda qoyub, baş götürüb gedirsənmi?
Hara getsən, yanacaqsan... Çəkər səni ağuşuna,
Uzaq gəzsən, tuş gələrsən doğma yurdun qarğışına.

O torpağın hər qarışı Vətənimin bir parçası,
Dağlarında hər daş, qaya daşa dönmüş bir əzası.
Hər ağacın damarında babaların qanı axır,
Qəzəbidir, eşidirsən? Göylərində şimşək çaxır.

Babaların ruhlarıdır ayaq altda inildəyən,
Göyə qalxmış nalələri rəzaləti seyr eyləyən.
Bax, o daş da, o qaya da babaların yadigarı,
O daşların sinəsində ərənlərin imzaları.

Qalx, yandıraq tonqalları, hər künçündə bu dünyanın,
Harda türkün oğlu varsa oyat, coşsun axan qanı...
Sən qalxmasan, oyanmasan, kimsə qalxmaz, Azərbaycan!
Qalx birləşək, bütövləşək, olaq bir can, Azərbaycan!

***17.03.2010***

## TARİXÇİ QARDAŞ

*Tarixçi alim Qasım Hacıyevə*

Bir yarış başlanıb tarixim üstə,
Hərə bir tərəfdən hücuma keçib.
Kimi həqiqətin sorağındadir,
Kimi gözə girir, saxta yol seçib.

Ümidim sənədir, tarixçi qardaş,
Vermə bu meydanı naşı kəslərə.
Elminlə açdığın həqiqət yolu,
Nurlu çıraq olsun gənc nəsillərə.

Yar yerin bağrını, əlinə dönüm,
Oxu hər qarışda tapdığın daşı.
Saxtakar soysuzlar baş aparırlar,
Göstər bu torpağın neçədir yaşı.

Ara gizlinləri, tap, axı, görək,
Qayada yonulmuş çalada nə var?
Yerin üstündəkin çox oxuyublar,
Yerin altındakı qalada nə var?

Dilləndir hər ələ gələn aləti,
Daşı daş dilində, dəmiri dəmir.
Qoy düzü danışsın, həqiqət desin,
Yalan ayaq tutur, ancaq yerimir.

Dilləndir daşları, dilləndir görək,
Dilləndir söz açsın ulu keçmişdən.
Dilləndir, bir görək, axı, nə deyir,
Min il bundan əvvəl olub bitmişdən?

Görək harda etdik birinci səhvi,
Kimə düşmənikən dost dedik axı?
Qol açdıq hamıya əzizimiztək,
Niyə xəyanəti görmədik axı?

Görək, hardan keçib o yol ötənlər,
Hara su çəkdirib, körpü saldırıb?
Bircə nişanəsi, izi yoxdursa,
Bəs yalan tarixi necə yazdırıb?

Axtar, heç usanma, tapdığın nə var,
Böyük mədəniyyət nişanəsidir.
Hər saxsı qırığı, hər daş parçası,
Mənim millətimin xəzinəsidir.

Nə qılınc, nə tüfəng iş görən deyil,
Qilinc da, qalxan da sənin əlində.
Çıxart həqiqəti yerin təkindən,
Yarat o tarixi tarix dilində.

Vətən tarixini sən özün yarat,
Yaxşı kimsə olmaz sənin yerində.
Millət yazmayırsa öz tarixini,
Olmaz gələcəyi yer üzərində.

***07-08 avqust 2010***

## *TOPARLANIB, SİLAHLANIB GƏLİRƏM*

Qalxdım daha, hünərin var dayan, dur,
Toparlanıb, silahlanıb gəlirəm.
Vaxtın varkən qəbrini qaz, hazır dur,
Toparlanıb, silahlanıb gəlirəm.

Adam bildim, torpağımda yer verdim,
Sızıldadın, yem istədin, yem verdim...
Yedin-içdin, qudurmusan, mən bildim, -
Toparlanıb, silahlanıb gəlirəm.

Daha keçməz tülkülüyün yanımda,
Atlanıb ürəyim, coşub qanım da,
Bir qisas hissi var indi canımda, -
Toparlanıb, silahlanıb gəlirəm.

İrəvan babamın doğma yurdudur,
Qarabağda nədir səni qudurdur?
Parçaladın, çox dağıtdın, indi dur, -
Toparlanıb, silahlanıb gəlirəm.

Ağaların gəlməz daha vecimə,
Yaltaqlığın girməz daha gözümə,
Son verirəm içimdəki dözümə, -
Toparlanıb, silahlanıb gəlirəm.

Görəcəksən qollarımın zorunu,
Nifrətimin, qəzəbimin qorunu,
Dağıdacam hiylə, kələk torunu, -
Toparlanıb, silahlanıb gəlirəm.

Bu torpağa xəyanətin bitəcək,
İzin-tozun o yerlərdən itəcək,
O dağlarda yenə güllər bitəcək, -
Toparlanıb, silahlanıb gəlirəm.

Heç çığırma, heç bağırma boşuna,
Tapacaqsan nə tökmüsən aşına,
Geniş dünya dar olacaq başına, -
Toparlanıb, silahlanıb gəlirəm!

## *GƏLƏCƏYƏM*

Daha bəsdir öz yerimdə gözləməyim,
Daha bəsdir xəbərləri izləməyim...
Qalxıb özüm çalacağam zəfərimi,
Qarabağda açacağam səhərimi...

Daha bəsdir ondan-bundan umdum onu,
Daha bəsdir yuxularda duydum onu...
Qılınclar da pas atıbdır qinlarında
Qalxım, haylar boğulsunlar qanlarında...

Güvənirəm öz xalqıma, öz orduma,
Taxacağam bayrağımı öz yurduma...
Haraylasam dörd bir yandan hay verərlər,
İgidlərim canlarından pay verərlər...

Nərə çəkib hayqırıram, duy, erməni,
Sən hələlik tülkülərə uy, erməni.
Qisasımı qiyamətə qoymayacam,
Sən gavura bir çöpümü qıymayacam...

Torpağımda gor eşirsən, gor eş hələ,
Bilirsən ki, dövran getməz, getməz belə.
Səni mənə hürüdənlər durar bir gün,
Xaricdəki çaqqalların susar bir gün.

Yal tapmazsan yalamaga, ulayarsan,
Məni görcək yenə quyruq bulayarsan...
İnanmaram kələyinə daha sənin,
Unutmaram yarasını bu sinəmin...

Taptağında qalıb yurdum - Qarabağım,
İllərdir ki, açılmayir qaş-qabağım...
Ondan ötrü hələ dillə döyüşürəm,
Közü qoyub, hələ küllə döyüşürəm...

Yağı düşmən, gözlə məni gələcəyəm,
Boş kəlləni nifrətimlə əzəcəyəm.
Çox özünü öymə belə, gələcəyəm, -
Sən indi gül, mən axırda güləcəyəm!

Birləşərək, bütövləşib gələcəyəm,
Bax, bu dəfə son dərsini verəcəyəm...
Gələcəyəm, gizlənməyə deşik axtar,
Bu döyüşdən Vətən əlbət bütöv çıxar!
Azərbaycan bütövləşib bütöv çıxar!

***03.02.2010***

# GƏLİRƏM

Əmr gözləyirdim düz otuz ildir,
Qanına susayib, gözlə, gəlirəm.
Dağıtdın, a vəhşi, od-ocağımı,
Qisasın almağa, gözlə, gəlirəm.

Dayan, dizlərini qıracam indi,
Səni yerdən yerə vuracam indi,
Sən yıxan evimi quracam indi,
Qənimin olmağa, gözlə, gəlirəm.

Murovdan başına od ələyəcəm,
Kimlərin itisən, mən biləcəyəm,
Səni yer üzündən tam siləcəyəm,
Cəlladın olmağa, gözlə, gəlirəm.

Hiylənə çox uydum, səbr etdim, nahaq,
Sən ki, qanmayırsan nədir haqq, nahaq,
İndi duruş gətir qarşımda, axmaq,
Kökün qurutmağa, gözlə, gəlirəm.

Hər yerdə eynisən, bir saxtakarsan,
Soyu bilinməyən tayfasan-haysan,
Tülküsən, çaqqalsan, axır heyvansan,
Dərini soymağa, gözlə, gəlirəm.

***19.10.2020***

# GƏLİRƏM İNDİ

Mundiri geymişəm oddan, alovdan,
Şuşam, görüşünə gəlirəm indi.
Bağışla gec oldu, uydum hiyləyə,
Başına dönməyə gəlirəm indi.

Unutmam ömründən ötən illəri,
Dərd üstə qalanan ağır dərdləri,
Dağıdıb bəndləri,aşıb sədləri,
Hayları gömməyəgəlirəm indi.

Başında duman var, bilirəm, çoxdan,
Küsmüsən taledən, küsmüsən baxtdan,
Mən həsrət qalmışam sənə nə vaxtdan,
Daşını öpməyə gəlirəm indi.

O namərd düşmənin başın əzməyə,
Kəm baxan gözünə millər çəkməyə,
Qanını tökməyə, soyun kəsməyə,
Kəfənin biçməyə gəlirəm indi.

Baxışla, ay Şuşam, dönürəm sənə,
Qan verib, can verib o Azad Günə,
Səni gülüstana döndərim deyə,
Torpağın əkməyə gəlirəm indi.

***05.11.2020***

# KEÇƏL DAĞDA

*Şahbuz rayonunda hazırda mənfur qonşularımızın ucbatından gedə bilmədiyimiz yaylaq*

"Kurqan dağ" başında ot topa-topa,
Kiçilir qayalar daş qopa-qopa,
Təbiyyət yatmayır heç ipə-sapa,
Keçəl dağda.

Yağır leysan yağış, heç vecə gəlmir,
Nə boran, nə tufan güc gələ bilmir,
İnsanlar məğrurdu, sınmır, əyilmir,
Keçəl dağda.

Döşündə bir topa qarı qalıbdı,
Ərimək bilməyir, yarı qalıbdı,
Qışın əmanəti, barı qalıbdı,
Keçəl dağda.

Bir çığır yönəlir "Sarı bulağa",
Həzin zümzüməsi çatır qulağa,
Dondurar toxunsa dilə, dodağa,
Keçəl dağda

"Qanlı göl" qoynunda əbədi güzgü,
Baxıb sığallanan təpədi, düzdü,
Sonalar qoynunda əllidi, yüzdü,
Keçəl dağda.

Çadırlar boylanır göbələk kimi,
Qız, oğlan çəməndə kəpənək kimi,
Al-əlvan geyimli, çərpələng kimi,
Keçəl dağda.

Gül-çiçək bürüyür bütün yaylağı,
Tükənmir heç zaman balı, qaymağı,
Sevib əzizlənər gələn qonağı,
Keçəl dağda.

Qartallar süzərlər qayalar üstə,
Çobanlar tütəyin çalar ahəstə,
Məmməd heyran olub, nə vaxtı " xəstə",
Keçəl dağda.

Boylanir uşaqlar yollara doğru,
Dolaşır dillərdə ümidli sorğu,
O gələn qaraltı maşınmı, doğru?!
Keçəl dağda.

Qartallar süzərlər qayalar üstə,
Çobanlar tütəyin çalar ahəstə,
Məmməd ilham alar bu həzin səsdən,
Keçəl dağda.

## MƏN SƏNİN YANINDAYAM

*Suriyada terror*
*birləşmələrinə qarşı*
*döyüşən Türk əsgərlərinə*

Yağı gəlir üstünə,
Yaman durub qəsdinə,
Zərbəni vur şəstinə,
Mən sənin yanındayam.

Düşmən sədləri aşıb,
Səbrim səbrintək daşıb,
Qanım qanıntək coşub,
Mən sənin yanındayam.

Azad eylə, dağları,
Gül-çiçəkli bağları,
Vur, gəbərt yağıları,
Mən sənin yanındayam.

Döyüş öz haqqın üçün,
Yurdunda qaçqın üçün,
Vatana aşqin üçün,
Mən sənin yanındayam.

Şığı ildırım kimi,
Sərt ol sıldırım kimi,
Söylə: Yandırım kimi?
Mən sənin yanındayam.

Düşmənlə yatanı vur,
Ona əl tutanı vur
Vətəni satanı vur,
Mən sənin yanındayam.

ABŞ saxta tərəfdaş,
Avropa saxta sirdaş,
Onlardan olmaz qardaş,
Mən sənin yanındayam.

Budur ərənlər gəlir,
Dağı dələnlər gəlir,
Yurdu sevənlər gəlir,
Mən sənin yanındayam.

Uğrunda qan tökərəm.
Can desən, can sökərəm,
Sancağından öpərəm,
Mən sənin yanındayam.

Diləsən qan verərəm,
Canımdan can verərəm,
Sənə qurban verərəm,
Mən sənin yanındayam.

Tax sancağı hər yerə,
Qoy ucalsın göylərə,
Örnək ol millətlərə,
Mən sənin yanındayam,
Mən sənin yanındayam.

***09.02.2018***

## HÜCUM, İGİDLƏR, HÜCUM!

Haylardan hədə gəlir
Hücum, igidlər, hücüm!
Üstümə gəda gəlir,
Hücum, igidlər, hücüm!

Boş vədlərdən coşdular,
Hədlərini aşdılar,
Nə yedilər çaşdılar?
Hücum, igidlər, hücüm!

Halına baxma onun,
Yalına baxma onun,
Qanına baxma onun,
Hücum, igidlər, hücüm!

Yüz illərlə diləndi,
Bu it kimə güvəndi?
Aş bərəni, aş bəndi,
Hücum, igidlər, hücüm!

Bəsdir artıq inlədik,
Səbr, dözüm dilədik,
Tülkülərə güvəndik,
Hücum, igidlər, hücüm!

Göstər ona həddini,
Qır belini, qəddini,
Keç Qarabağ səddini,
Hücum, igidlər, hücüm!

Söykən məğrur dağlara,
Qan uddur yağılara,
Dönək ötən çağlara,
Hücum, igidlər, hücüm!

***05.05.2016***

## ƏLVİDA!

Günlər ömür vərəqi
Qopub gedir, əlvida!
Vəfasız sevgilitək
Atıb gedir, əlvida!

Saçların qarasını,
Qəlblərin parasını,
Dərdlərin çarasını,
Çalıb gedir, əlvida!

Dərd gəlir dərdlər üstə,
Çarəsi yox, ha istə,
Istər ağla, lap küs də,
Ötüb gedir, əlvida!

Saxlamaq olmur,qardaş,
Daşlamaq olmur, qardaş,
Boşlamaq olmur, qardaş,
Varıb gedir, əlvida!

Qələm Tanrı əlində,
Tufanın da, selin də,
Dua olsun dilində,
Gedir getsin, əlvida!

***09.04.2020***